**UOT 94 "19/…"**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKI NEFT SƏNAYEÇİLƏRİ QURULTAYLARINDA FƏHLƏ MƏSƏLƏSİNƏ DAİR

**P.R.XƏLİLOV**
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***polad-xalil@mail.ru***

*Məqalədə XX əsrin əvvəllərində Bakı sənaye rayonunda fəaliyyət göstərən fəhlələrin əmək və məişət şəraitindən, çar hökumətinin onlara qarşı biganə münasibətindən, Bakı neft sənayeçiləri qurultaylarında onların sosial problemlərinin yaxşılaşdırılmasına dair qərarların qəbul olunması və qurultay təşkilatının bu istiqamətdə həyata keçirdiyi tədbirlərindən bəhs olunur. Dünya iqtisadi böhranı, fəhlə tətil hərəkatlarının geniş vüsət aldığı, birinci rus inqilabının baş verməsi və digər hadisələri özündə birləşdirən bəhs olunan dövrdə fəhlə məsələsinin araşdırılması xüsusi aktuallıq kəsb edir.*

**Açar sözlər:** neft, sənaye, qurultay, fəhlə, xəstəxana

Fəhlələrin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə mədən sahələrindən kənar ərazilərdə fəhlə qəsəbələrinin tikilməsi məsələsi hələ 1897-ci ildən başlayaraq neft sənayeçiləri qurultaylarında müzakirə olunsa da, öz həllini tapmırdı. Dövlət əmlakı və torpaq nazirinin sədrliyi ilə 1901-ci ildə keçirilən xüsusi müşavirəsində də qurultay Şurasının fəhlə qəsəbələrinin tikilməsinə dair müraciətinə baxılmışdır. Lakin neft sənayeçilərinin 1903-cü ilin dekabr ayında keçirilən XVIII qurultayında bu məsələ bütün təfsilatı ilə müzakirə olunsa da, son anda gözlənilmədən təxirə salınmışdır [1, 321].

1903-cü il iyulun 1-də başlayan Bakı fəhlələrinin tətili sonradan bütün Bakı sənaye rayonu ərazisini, Cənubi Qafqaz və Rusiyanın cənubunu əhatə edərək fəhlələrin ümumi tətilinə çevrildi. 1900-1903-cü illərin sənaye böhranının təsiri nəticəsində fəhlələrin sosial vəziyyətinin daha da pisləşməsi, onların siyasi hüquqlarının pozulması, sahibkarların və çar hökumətinin özbaşınalığı tətilin başlanmasına səbəb olmuşdur [1, 696]. Tətil 22 gün davam etdi və çarizm yalnız hərbi qüvvələri cəlb etmək yolu ilə onu yatırda bildi. Nəticədə fəhlələr qismən də olsa öz tələblərinin təmin edilməsinə nail oldular. Qurultay Şurası statistika bürosunun məlumatlarına görə, tətil hərəkatında iştirak edən 42 firmadan yalnız 3-də fəhlələrin tələbləri tam olaraq yerinə yetirilmiş, 15 firma işçilərinin tələbləri qismən təmin edilmiş, 19 firmanın tələbləri isə

tamamilə qəbul edilməmişdir. Qalan 5 firma haqqında isə məlumat yox idi [1, 696-697].

1904-cü il dekabrın 13-dən 31-ə qədər Bakı fəhlələrinin yeni ümumi tətili baş verdi [1, 700]. Dekabrın 13-də demək olar ki, bütün mədən və zavodlar tətilə başladılar. Tətil Balaxanıda başladı, sonradan Balaxanı şossesində Xarisov və Levensona məxsus olan maşınqayırma zavodları, Ağşəhər və Qaraşəhərdə ağ neft zavodları da işi dayandırdılar [2,v.1].

Tətildə iştirak edən fəhlələr Bakı şəhər idarəsi və neft sənayeçiləri qurultayı Şurası qarşısında bir sıra tələblər irəli sürürdülər. Bu tələblər Bakı şəhərində və eləcə də mədən-zavod rayonunda – Balaxanıda, Ramanada, Sabunçuda, Bibiheybətdə, Qaraşəhərdə və Ağşəhərdə fəhlələrin mənzilə olan tələbatlarının ödənilməsi, Balaxanı, Zabrat və Bibiheybətdə 3 yeni xəstəxana və ambulatoriyanın açılması, qurultay Şurasının və Bakı şəhər idarəsinin sərəncamında olan işsiz fəhlələr üçün ictimai işlərin təşkil olunması və digər tələblərdən ibarət idi [3,v.7-8].

1904-cü il dekabr tətilinin gedişində Rusiya imperiyasında ilk dəfə olaraq fəhlələrlə sahibkarlar arasında kollektiv müqavilə imzalandlı ki, bu da "mazut konstitusiyası" adlanırdı. Tətildə 50.000-ə yaxın fəhlə iştirak etmişdi [4, 33,66]. 1904-cü il dekabr tətilindən sonra yalnız iş gününün 9 saata qədər aşağı salınması tələbi birdəfəlik olaraq hər yerdə tətbiq olundu. Digər tələblər isə demək olar ki, yerinə yetirilməmiş qaldı [1, 343].

Lakin Bakı fəhlələrinin yaydığı 1906-cı il aprel tarixli məlumatdan bəlli olur ki, növbəsiz işləyən fəhlələr üçün 9 saatlıq iş gününün tətbiq olunması əvəzinə bir cox yerlərdə qara fəhləlchange 10,5 saat müddətində işləməyə məcbur edirdilər. Müqavilədə iş vaxtından artıq davam edən işlərin ləğv olunması nəzərdə tutulsa da, ustaları demək olar ki, hər gün iş vaxtından çox işləməyə məcbur edirdilər və buna görə nadir hallarda yarı əmək haqqı verilirdi. Mantaşovun, Əsədullayevin, "Balaxanı neft cəmiyyəti"nin və digərlərinin mədənlərində çalışan fəhlələr və dartayçılar 3 novbədə işləmək əvəzinə 2 növbədə işləyirdilər. Belə çıxır ki, bir çox fəhlələr gün ərzində 11-12 saat, bəziləri isə hətta ondan da çox çalışırdılar. Belə ki, Udel müəssisənin mədənlərində qara fəhlələr 15 saat işləyir və buna görə əlavə əmək haqqı almırdılar [5,v.2].

1905-ci ilin may ayında Balaxanıda və digər qonşu mədənlərdə baş verən tətillərdə müsəlman fəhlə əhalisinin böyük rolu olmuşdur. Həmin tətillərdə iştirak edən müsəlman fəhlə deputatları (azərbaycanlılar və digərləri – **P.X.**) şikayət edirdilər ki, mədənlərdə fəaliyyət göstərən iş icraçıları arasında müsəlman millətinə mənsub olanları yoxdur və onlar müsəlmanlarla ədalətsiz davranırlar. Müsəlman fəhlələrinə nəzarət etmək üçün müsəlman millətindən olan iş icraçılarının təyin olunması tələbi irəli sürülürdü. Həmçinin onlar xəstəxanada müsəlman həkimindən ibarət olan ayrıca şöbənin olmamasından da şikayət edirdilər [6].

1904-1906-cı illərdə təkcə Balaxanı və Bibiheybət rayonlarında baş verən bədbəxt hadisələr Rusiyada baş verən bütün bədbəxt hadisələrin 1/10-ni

təşkil edirdi. Halbuki, həmin rayonların mədənlərində çalışan fəhlələr ölkənin bütün fabrik-zavod sənayesi fəhlələrinin 1/50-ni təşkil edirdilər. Bütövlükdə, Rusiya mədən sənayesinə nisbətən Bakı neft sənayesində zədələnmə və ölümlə nəticələnən hadisələrin sayı daha çox idi [7, 243].

Neft sənayeçiləri qurultaylarında fəhlə və qulluqçuların sığorta olunması kassasının təsis olunması barədə müzakirələr uzun illər davam etsə də, müxtəlif səbəblər üzündən bu məsələ həyata keçirilməmiş qalırdı. Neft sənayeçilərinin 1899-cu ilin may ayında keçirilən XIII qurultayından başlayaraq sonrakı bəzi qurultaylarda da həmin məsələ əsas müzakirə obyekti olmuşdur. Sığorta kassasının nizamnamə layihəsi, daha sonra isə xüsusi əsasnaməsi işlənib hazırlansa da, onlar öz təsdiqini tapmamışdı. Buna maneçilik törədən amillər ondan ibarət idi ki, təsis olunacağı nəzərdə tutulan kassanın üzvləri Bakı sənaye rayonunda neftin hasilatı, emalı və çəkilib vurulması üzrə fəaliyyət göstərən müəssisə sahibkarlarından, həm də qazma işləri üzrə sahibkarlardan ibarət olmalı idilər. Digər tərəfdən isə artıq XX əsrin əvvəllərində fəhlə və qulluqçuların dövlət tərəfindən sığorta olunması məsələsi işlənib hazırlandığına görə, sahibkarlar bu məsələnin həyata keçirilməsini vacib saymadılar [8, 16-17].

Neft sənayeçlərinin 1906-cı ilin may-iyun aylarında keçirilən XXII qurultayına Bibiheybət və Balaxanı rayonu fəhlə-müsəlmanlarının ərizəsi daxil olmuşdur. Onlar qurultay Şurası xəstəxanalarının nəzdində, xəstələnmiş və bədbəxt hadisələrə məruz qalmış müsəlmanlar üçün müsəlman həkimlərindən ibarət olan ayrıca şöbələrin təşkil olunması məsələsini irəli sürürdülər [9, 597-598].

XX əsrin əvvəllərində şikəst olmuş fəhlələrin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə neft sənayeçiləri qurultayı tərəfindən şikəstolma halları üzrə komissiya təsis olunmuşdu. Lakin sonradan məlum oldu ki, komissiyaya həvalə olunan vəzifələrlə onların fəaliyyəti tamamilə ziddiyyət təşkil edir. Fəhlələr onlara verilən əlillik şəhadətnamələrinə inamsız yanaşır, şikəstolma dərəcəsinə görə verilən vəsaitin miqdarından həmişə narazılıq edirdilər [10, 204].

1907-ci il yanvarın 14-də qurultay Şurasında tibbi-sanitar şurasının təcili iclası çağırıldı. Qurultay Şurası bütün rayonlar üzrə şikəstolma halları üzrə komissiyanın fəaliyyətinin dayandırılması barədə qərar verdi. Bundan sonra qurultay Şurasının həkimləri tərəfindən yalnız xəstəlik haqqında şəhadətnamə verilə bilərdi. Əmək qabiliyyətini itirmiş fəhlələrə əlillik dərəcəsini isə 2 iyin 1903-cü il Qanununa müvafiq olaraq dövlət tibb müəssisələrinin həkimləri verməli idilər [10, 204].

Bakı sənaye rayonu fəhlə və qulluqçularının sığorta olunması məsələsinə bir daha qayıdaraq qeyd edək ki, bu məsələnin həyata keçirilməsi üçün qurultay Şurası tərəfindən müvafiq inzibati idarəçilik orqanları qarşısında dəfələrlə vəsatət qaldırılsa da, o öz həllini tapmamışdı. Lakin artıq həmin vaxt fəhlələrin məcburi dövlət sığortası barədə qanun layihəsi Dövlət Dumasına daxil olmuşdur [11,v.173,174-arxa,175].

Mədən-zavod rayonunun şikəstliyə məruz qalmış fəhlə və quluqçularının tələbatının ödənilməsi məqsədilə 1908-ci ildə qurultay Şurasının nəzdində “Şikəst olmuş fəhlələrin müayinə edilməsi bürosu” təsis olunmuşdu. İlk əvvəl, yəni həmin ilin sentyabr ayında hələ heç bir ödəniş məbləği tətbiq olunmadığına görə, büroya müraciət edənlərin sayı çox olurdu. Təsadüfi deyil ki, 1908-ci ilin sentayabrın 1-dən 1909-cu ilin sentyabrın 1-nə qədər büroya müraciət edən fəhlələrin sayı 875 nəfərə bərabər idi ki, onların da 133 nəfəri (15 %) təkcə 1908-ci ilin sentyabr ayına təsadüf edirdi. Həmin vaxt şikəst olmuş fəhlələr firmaların və fabrik müfəttişlərinin qəbzləri ilə büroya qəbul olunurdular. Lakin artıq 1908-ci ilin oktyabrında müayinə olunma xərci hər bir fəhləyə görə 5 rubl, daha sonra isə 10 rubl məbləğində tətbiq olundu [12].

Sonrakı illərdə Bakı neft sənayesində çalışan fəhlələrin sayında kəskin surətdə azalmanın baş verməsi büronun fəaliyyətinə qismən öz təsirini göstərmişdi. 1908-ci il sentyabrın 1-dən 1909-cu il sentyabrın 1-nə qədər büroya 876 (lakin yuxarıda 875 nəfər göstərilib – **P.X.**), 1909-10-cu illərdə 752, 1910-11-ci illərdə isə yalnız 525 nəfər müraciət etmişdi. Həmin 525 nəfərin 493-ü (qeydiyyata 487 nəfər düşmüşdü) firmalar tərəfindən göndərilmiş, 32 nəfəri isə könüllü surətdə büroya müraciət etmişdilər. Firmalar tərəfindən göndərilən xəstələr ən çox “Nobel qardaşları” şirkətindən (124 nəfər), daha sonra “Mirzoyev qardaşları” (36 nəfər), “Şibayev” (20 nəfər), “Mantaşov və K$^{0}$” (18 nəfər) və digər firmalardan idilər. Ümumiyyətlə, 1910-11-ci illərdə cəmi 89 firma büroya müraciət etmişdi [13].

Fabrik müfəttişliyinin məlumatlarına görə, 1907-1909-cu illərdə neft sənayesi və onunla bağlı olan istehsal sahələrində hər il orta hesabla 50.379 fəhlə fəaliyyət göstərmişdir ki, onların arasında da baş verən bədbəxt hadisələrin sayı hər il 5.635 dəfəyə bərabər olmuşdur. Başqa sözlə desək, hər 100 nəfər fəaliyyətdə olan fəhləyə 11,2 dəfə bədbəxt hadisə düşürdü. Bədbəxt hadisələr öz dərəcələrinə görə aşağıdakı 3 qrupa ayrılırdı: 1) ölümlə nəticələnən bədbəxt hadisələr; 2) əmək qabiliyyətinin birdəfəlik olaraq itirilməsi ilə (tamamilə və natamam) nəticələnən bədbəxt hadisələr; 3) əmək qabiliyyətinin müvəqqəti olaraq itirilməsi ilə nəticələnən bədbəxt hadisələr [14, .9-10].

Həkim Dondarov bədbəxt hadisələrin baş verməsinin səbəblərindən biri kimi ağır mədən işlərində kifayət qədər təcrübəsi olmayan qulluqçuların fəaliyyət göstərmələri ilə əlaqələndirirdi [15]. Həmin dövrdə Binəqədidəki neft mədənlərinin vəziyyəti ibtidai səviyyədə olaraq qalırdı. Oradakı quyulardan nefti əl üsulu ilə çıxarırdılar. Fəhlələr arasında baş verən quyulara yıxılma, qazlarla boğulma və digər bədbəxt hadisələrə tez-tez rast gəlinirdi. Həmin hadisələrə baş fabrik müfəttişi Brailovski diqqət yetirmiş və bu barədə Bakı şəhər rəisinə məlumat vermişdi [16].

Yuxarıda bəhs etdiyimiz fəhlə qəsəbələrinin tikilməsi məsələsi də hələ öz həliini tapmamışdı. Bu barədə neft sənayeçiləri tərəfindən hökumət qarşısında vəsatət qaldırılsa da, magistrala (əsas yola) çıxan yolların tikilməməsi səbəbindən bu işin həyata keçirilməsinə icazə verilmirdi. Yəni eyni zamanda,

hökumət həmin yolların tikilməsini neft sənayeçilərindən tələb edirdi. Hərçənd ki, fəhlələrin məişət şəraitinin yaxşılaşdırılması üçün yeganə çıxış yolu yaşayış evlərinin mədən hüdudlarından kənara köçürülməsi idi [17].

Z.S.Eminova öz əsərində statistika məlumatlarına istinad edərək göstərir ki, bəhs olunan dövrdə təkcə Şimali Azərbaycan əhalisi deyil, hətta çar Rusiyasının mərkəzi quberniyalarında da əhali tibbi-sanitariya yardımı ilə tələb olunan səviyədə təmin olunmamışdı. Rusiya imperiyası üçün ən azı 70.000 həkim gərək olduğu halda, onların sayı 15-20 min nəfərə ancaq çatırdı. 1910-cu ildə təkcə Rusiyada hər 1 milyon nəfərə cəmi 155 həkim və ya hər bir həkimə 6.450 sakin düşürdü [18, 16-17].

Neft sənayeçiləri qurultayı tərəfindən polisin saxlanılmasına hər il 600.000 rubl məbləğ sərf olunurdu. Bakı şəhər idarəsi tərəfindən bu sahəyə əvvəllər ildə 150.000 rubl xərclənirdisə, sonradan həmin məbləğ 75.000 rubla qədər azaldıldı. Başqa sözlə desək, vəsaitin yarısını artıq dövlət özü ödəyirdi [19,v.16-arxa-17]. Buradan aydın olur ki, hökumət həm neft sənayeçiləri qurultayına fəhlələrin mənzil şəraitinin yaxşılaşdırılması üçün şərait yaratmır, həm də fəhlə tətil hərəkatlarının qarşısının alınması üçün ondan bir alət kimi istifadə edirdi. Hər iki halda bundan fəhlələr zərər çəkirdilər.

Beləliklə, bəhs olunan dövrdə neft sənayeçiləri qurultayının nəhəng mədən-zavod rayonunda neft sənayesi fəhlələrinə demək olar ki, təkbaşına surətdə tibbi-sanitariya yardımı göstərməsi təqdirəlayiq hal hesab olunmalıdır. Onun bu sahədəki fəaliyyətində nə qədər çatışmazlıqlar olsa belə, fəhlələrin sağlamlığının mühafizə olunması baxımından böyük əhəmiyyətə malik idi. Təsadüfi deyil ki, Qurultayın neft sənayesi fəhlələrinin tibbi-sanitariya nöqteyi-nəzərdən qayğısına qalması öz miqyasına görə hətta Bakı şəhər idarəsinin tibbi-sanitariya sahəsindəki fəaliyyətini də ötüb keçmişdi. Qurultay yalnız çar hökumətinin dayağı olan qüvvələrin saxlanılmasına daha çox vəsait ayıraraq fəhlə hərəkatlarının qarşısını almaq məqsədini güdürdü. Fəhlə hərəkatlarının geniş vüsət aldığı bir zamanda çar hökumətinin və neft sənayeçiləri qurultayının bir sıra güzəştlərə getməsi də onu göstərir ki, onlar fəhlələrin təzyiqindən ehtiyat edirdilər.

**ƏDƏBİYYAT**


1. Монополистический капитал в нефтяной промышленности России (1883-1914). Документы и материалы. М-Л: Академия Наук СССР, 1961, 796 с.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.276, s.3, iş 186.
3. ARPİİSSA, f.276, s.1, iş 420.
4. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917). Баку: Елм, 1997, 336 с.
5. ARPİİSSA, f.276, s.1, iş 272.
6. Газета «Каспий». 1905, 17 мая, № 90.
7. Ахундов Б.Ю. Монополистический капитал в дореволюционной Бакинской нефтяной промышленности. М.: Социально-Экономическая Литература, 1959, 296 с.

8. Браиловский М. К страхованию рабочих от несчастных случаев // журнал «Нефтяное дело», 1908, 31 октября, № 20, с.16-18.
9. Труды XXII-го очередного съезда нефтепромышленников в гор. Баку (с 8-го мая по 1-ое июня 1906 года). Том I. Баку: Типография 1-го Типографского Товарищества, 1906, 685 с.
10. Из деятельности учреждений съезда нефтепромышленников // журнал «Нефтяное дело», 1907, 15 февраля, № 3, с.203-207.
11. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f.46, s.2, iş 2.
12. Газета «Каспий», 1910, 24 января.
13. Несчастные случаи в Бакинской нефтяной промышленности. Газета «Каспий», 1912, 15 января, №12.
14. Несчастные случаи с рабочими в нефтяной промышленности // журнал «Нефтяное дело», 1912, 5 марта, №5, с.9-14.
15. «Каспий», газета, 1910, 31 января,
16. «Каспий», газета, 1908, 16 октября,
17. Жилища бакинских рабочих // Газета «Каспий», 1909, 9 апреля.
18. Eminova Z.S. XIX-XX əsrin əvvəllərində Azərbaycanda səhiyyənin tarixi: T.e.n. alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2004, 27 s.
19. ARPİİSSA, f.276, s.8, iş 449.

## РАБОЧИЙ ВОПРОС НА СЪЕЗДАХ БАКИНСКИХ НЕФТЕПРОМЫШЛЕННИКОВ В НАЧАЛЕ XX ВЕКА

**П.Р.ХАЛИЛОВ**

**РЕЗЮМЕ**

В статье рассматривается рабочая политика «Съезда бакинских нефтепромышленников» в начале XX века. Хотя Съезд и являлся инструментом давления царизма на рабочие массы, в том числе и в подавлении их выступлений, тем не менее им были проведены в жизнь также мероприятия по охране здоровья рабочих.

**Ключевые слова:** нефть, промышленность, съезд, рабочий, больница

## THE WORKERS' PROBLEM AT "BAKU OIL INDUSTRIALISTS'CONGRESS" AT THE BEGINNING OF THE XX CENTURY

**P.R.KHALILOV**

**SUMMARY**

The article deals with the problem of workers at "Baku Oil Industrialists' Congress" in early XX century. Even the oil industrialists' congress was a tool in the hand of tsar government to prevent the workers' actions, nevertheless, there were carried out measures to protect the workers' health.

**Key words:** oil, industry, congress, worker, hospital